# Rayon müəllimlərinin sentyabr konfransı

## Rayon təhsil şöbəsinin müdiri Oqtay Hacıyevin məruzəsi

(Əvvəli 5-ci səhifədə).

Yeni kurikulumların tətbiqinə başlanılmasının 6-ci ilində qarşıya qoyulan məqsədlərin necə həyata keçirilməsi vəziyyətinin öyrənilməsi, qazanılan müsbət təcrübənin tətbiq edilib yayılması, nöqsan və çatışmazlıqların müəyyən edilib aradan qaldırılması diqqət mərkəzində olmuşdur.

2013—2014-cü tədris ilində VI siniflərdə tədrisin kurikulumla aparılamsı nəzərə alınaraq həmin siniflərdə işləyəcək fənn müəllimlərinin siyahıları tərtib edilmiş və həmin siyahılar Təhsil Nazirliyinə təqdim olunmuşdur. İyul-avqust aylarında həmin müəllimlərin hamısı Nazirlik tərəfindən təşkil olunmuş 10 günlük təlim kurslarına cəlb olunmuşdur. Ümumilikdə 620 nəfər fənn müəllimi bu təlim kurslarından keçmişlər.

Biz bugünkü konfransımızda müəllimlərlə yanaşı, təlim prosesinin əsas hədəfi və fəal iştirakçısı olan şagirdlərimizin də naliyyətlərini qeyd etməliyik.

İstedadlı uşaqlarla aparılan məqsədyönlü işlərin nəticəsidir ki, şagirdlərimiz fənn olimmiadalarının respublika turunda və digər respublika səviyyəli yarışlarda, müsabiqələrdə uğurlu nəticələr göstərirlər. Olimpiadanın 9 fənn üzrə mart ayında Bakı şəhərində keçirilən respublika turunda şagirdlərimizdən 2 nəfəri mükafata layiq yer tutmuşlar.

Rayonda gənclərin bədən tərbiyəsi və idmanın, hərbi vətənpərvərlik tərbiyəsinə, yeniyetmə və uşaqların həyata və ordu sıralarına hazırlaşmasına, onların gələcəkdə cəmiyyətin aparıcı qüvvəsi kimi yetişməsinə, gənclərə respublikanın müstəqilliyinin qorunması, onun müdafiə qüdrətinin günügündən artırılması, dövlət atributlarının mahiyyətinin öyrədilməsi istiqamətində aparılan işlər həmişə diqqət mərkəzində saxlanılır.

Məktəblilərin ekoloji cəhətdən maarifləndirilməsi, onların ətraf mühitin zərərli amillərdən qorunması işində fəal iştirak etmələri həmişə diqqət mərkəzində saxlanılır. Belə yarışlar respublika səviyyəsində də keçirilir. 2013-cü ilin mart ayında Azərbaycan Respublikası Neft şirkətinin təşkilatçılığı ilə İsmayıllı rayonunda respublika bilik yarışı keçirilmişdir. Yarışda rayonumuzun Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin dərnək üzvləri fəal iştirak etmiş və yarışmaya qatılan 25 rayon arasında 3-cü yeri tutmuş, Neft şirkəti tərəfindən qiymətli hədiyyələr almışlar.

Zalam tam orta məktəbinin X sinif şagirdi Möylanov Qadir Nadir oğlu rəssamların respublika baxış sərgisində iştirak etmiş, II dərəcəli diplomla mükafatlandırılmışdır.

**Hörmətli konfrans iştirakçıları!**

Möhtərəm Prezidentimiz İlham Əliyev qeyd etmişdir ki, Azərbaycanın təhsil tarixi qürurvericidir. Bu tarixdən çox şey öyrənmək olar. Öz fəaliyyətində bunu diqqət mərkəzində saxlayan Qəbələ RTŞ-si dərs ili çərçivəsində təhsilin keyfiyyətinə nəzarət etmək məqsədilə rayonun ümumtəhsil məktəblərinin əksəriyyətində planlaşdırmanı və proqram materiallarının yerinə yetrilməsini araşdırmış, ayrı-ayrı fənlərin tədrisi keyfiyyətinin daha da yüksəldilməsi işini diqqət mərkəzində saxlamışdır. Bu məqsədlə rayonun Mıxlıqovaq, Zalam, Bayramkoxa, Abrıx, Vəndam qəsəbə 2 saylı tam orta, Dizaxlı, Zirik, Yengicə, Bum ümumi orta məktəblərində dilədəbiyyat, şəhər 1, 3, Zarağan 1, Nic qəsəbə 2 saylı tam orta məktəblərində riyaziyyat, Soltannuxa, Çarxana, Yemişənli, Bum tam orta məktəblərində kimya və biologiya, şəhər 2, 5 saylı, Çuxur Qəbələ, Nic qəsəbə 3, 4 saylı tam orta, İmamlı ümumi orta məktəblərində xarici dil, şəhər 4, 5, Vəndam qəsəbə 1 saylı, Bunud kənd tam orta məktəblərində informatika fənninin tədrisi vəziyyəti araşdırılmışdır. Həmçinin rayonun ümumitəhsil məktəblərinin I—V siniflərində tədrisin kurikulumla aparılmasının gedişinin araşdırmaq məqsədilə rayon üzrə monitorinq keçirilmiş, bu sahədə yaxşı təcrübə əldə etmiş müəllimlərin açıq dərsləri təşkil olunmuş, qabaqcıl müəllimlərin iş təcrübəsi rayon daxilində yayılmışdır. Kurikulumla təhsilin nəticələri təhsilyanı şura iclasında müzakirə olunmuş, mövcud nöqsan və çatışmamazlıqların aradan qaldırılması üçün tədbirlər görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2013-cü il tarixli sərəncamına əsasən 2013-cü il "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan eilmişdir. Bu məqsədlə rayon təhsil şöbəsində və bütün məktəblərdə xüsusi tədbirlər planı hazırlanmışdır. Keçən dərs ilində məktəblərimiz 481 ədəd komputerlə təmin edilmiş, rayon üzrə 43 komputer sinfi fəaliyyət göstərmişdir. Yeni dərs ilinə hazırlıq məqsədilə yerli büdcə hesabına daha 35 dəst komputer alınması nəzərdə tutulmuşdur.17 məktəbimiz fəal internet sisteminə qoşulmuş, təhsil şöbəsinin, həmçinin 5 məktəbin xüsusi internet saytı açılmış, şöbədə informasiya mərkəzi yaradılmış, TİMS proqramı üçün bütün məktəblər üzrə kordinatorlar müəyyən edilmişdir. Tədbirlər planına uyğun olaraq şəhər 4 və 5 saylı, Zarağan 1 saylı, Vəndam qəsəbə 1 saylı, Nic qəsəbə 2 saylı, Tüntül tam orta, Dizaxlı və Bum ümumi orta məktəblərdə informatika fənninin tədrisi keyfiyyətinə aid monitorinq aparılaraq təhsilyanı şura iclasında müzakirə edilmişdir. Məktəblərimizdə bu istiqamətdə aparılan işlərin nəticəsidir ki, artıq yuxarı sinif şagirdləri İKT-lar sahəsində zəngin biliyə malikdirlər. Onlar artıq model və modelləşdirmə, kompüter qrafikası, rastr qrafikası, vektor görüntüləri, fraktal və üçölçülü qrafika, internetdə axtarış sahəsində yüksək bacarıq və vərdişlərə malikdirlər. "İnformasiya-kommunikasiya texnologiyaları ili" çərçivəsində tərtib olunmuş tərbirlər planında nəzərdə tutulmuş işlər 2013—2014-cü dərs ilinin I yarısında da davam etdiriləcəkdir.

Təhsil şöbəsi 2012—2013-cü dərs ilini müvəffəqiyyətlə başa vurmaq, buraxılış və qəbul imtahanlarında yüksək nəticələr əldə etmək məqsədilə görülən tədbirlər özünün müsbət nəticəsini vermişdir. TQDK tərəfindən 2 fəndən—ana dili və riyaziyyatdan imtahan keçirilmişdir. Buraxılış imtahanlarının nəticəsi IX siniflər üzrə 55,6 faiz, XI siniflər üzrə isə 69,7 faiz olmuşdur. Bunların hər biri respubliaknın orta göstəricisindən yüksəkdir.

Bu il yeni təyin olunmuş təhsil naziri çox hörmətli Mikayıl Cabbarov tərəfindən verilən bir çox göstərişlər ölkə, o cümlədən rayon əhalisinin ürəyincə olmuşdur. Belə ki, məzunlara məktəb sənədlərinin verilməsi, I sinfə şagird qəbulu, təhsil şöbələrində səlahiyyətli şəxslərin əhali ilə dəqiq tərtib olunmuş qrafik əsasında qəbulunun keçirilməsi, məktəb rəhbərləri, müəllim və şagirlərin lüzumsuz satışlara cəlb olunmasının qadağan olunması, təmir və digər adlarla məktəblərdə müəyyən məbləğ toplanmasının qadağan olunması, bütün təhsil işçilərinin, o cümlədən, ölkə vətəndaşlarının dərin sevincinə səbəb olmuşdur. Hörmətli nazirimiz qeyd etmişdir ki, 9—11 il məktəbə ayaq basmış şagirdin məktəbdən sənəd alması onun hüququdur.

Bunun nəticəsində 2012—2013-cü dərs ilində IX sinif şagirdlərindən imtahana buraxılan 1.805 şagirddən 1.795 nəfəri, XI sinif şagirdlərindən imtahana buraxılan 1.374 nəfərdən hamısı şəhadətnamə və attestat almışlar. Mərkəzləşdirilmiş qaydada imtahan keçirilən 2007—2013-cü illərdə qeyri-müvəffəq qiymət almış şagirdlərin hamısına məktəb tərəfindən imtahan keçirilərək attestat verilməsi üçün hörmətli nazirimiz göstəriş vermişdir.

2012—2013-cü dərs ili 2 nəfər IX sinif şagirdimiz Fərqlənmə şəhadətnaməsi, beş XI sinif məzunumuzun isə "Qızıl medal" alması ilə əlamətdar olmuşdur.

Onların hər biri dərs əlaçısı olmaqla yanaşı, fənn olimpiadalarının respublika turunun iştirakçısı olmuşlar. Fərəhləndirici haldır ki, bu medalçılarımızın hamısı qəbul imtahanında 600-dən yüksək bal toplayaraq respublikanın nüfuzlu ali məktəblərinə daxil olmuşlar.

Fərəhlə qeyd etmək lazımdır ki, ali məktəblərə test üsulu ilə tələbə qəbulunun 22-ci ilində də rayonumuzun məzunları yenə də yüksək nəticələr əldə etmiş, belə ki, sənəd verən 795 nəfərdən 496 nəfəri tələbə adını qazanmışdır. Bu da əvvəlki illə müqayisədə 40 nəfər çoxdur. Məzunlarımızdan 27 nəfəri 600-dən, 104 nəfəri isə 500-dən çox bal toplamışlar.

2013—2014-cü dərs ilinin başlanması ərəfəsində inamla deyə bilərik ki, ümumtəhsil məktəblərimzin qarşıdan gələn dərs ilinə hazırlığı qənaətbəxşdir. Belə ki, qısa müddət ərzində rayon İH-nin göstərişi və yaxından köməkliyi ilə məktəblərimizdə əsaslı və cari təmir işləri aparılmışdır.

Yeni dərs ilində məktəblərin inventar və avadanlıqla təmin olunması həmişə olduğu kimi yenə də diqqət mərkəzində saxlanılmışdır. İndiyə kimi yerli büdcə hesabına 118.993 manatlıq 1.029 ədəd parta, 100 ədəd yazı lövhəsi, 200 ədəd kitab şkafı, 1.300 ədəd stul, 200 ədəd müəllim masası, 15 ədəd direktor kabineti dəsti, 50 ədəd paltar şkafı, 150 $m^2$ pərdə jalüz, ümumilikdə 294.143 manat dəyərində müxtəlif adda inventar avadanlıq alınaraq bölgü əsasında məktəblərə paylanılmışdır.

Məktəblərin dərsliklərlə təminatı, eləcə də kitabxanaların bədii ədəbiyyatlarla zənginləşdirilməsi istiqamətində xeyli iş görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 4 sentyabr 2007-ci il tarixli, 2373 nömnrəli sərəncamı ilə artıq 6 ildir ki, Təhsil Nazirliyi tərəfindən "Ən yaxşı məktəb" və "Ən yuaxşı müəllim" müsabiqəsi keçirilir. 2009-cu ildə şəhər 1 saylı, 2011-ci ildə Nohurqışlaq kənd tam orta məktəbi həmin müsabiqənin qalibi olmuşdur. Fərəhlə qeyd etmək lazımdır ki, 2012—2013-cü dərs ilində keçirilən müsabiqədə iştirak edən 2 məktəbimiz bu müsabiqənin qalibləri sırasına çıxmışdır. Şəhər 4 saylı və Vəndam qəsəbə 1 saylı tam orta məktəbləri "Ən yaxşı məktəb" müsabiqəsinin qalibi olmuş, respublikanın 50 ən yaxşı məktəbi sırasına çıxmış, hər bir məktəb 10 min manat pul mükafatına layiq görülmüşdür.

**Hörmətli konfrans iştirakçıları!**

9 oktyabr 2013-cü il tarixdə Azəraycan Respublikasında növbəti prezident seçkiləri keçiriləcəkdir. Seçkilərdə prezidentliyə əsas namizədlərdən biri, daha doğrusu birincisi hazırkı Prezidentimiz İlham Əliyev cənablarıdır. Möhtərəm Prezidentimizin seçki təbliğatına heç bir ehtiyac yoxdur. Onun ən böyük təbliğatı işlədiyi müddətdə respublikada qurduğu nəhəng komplekslər, çoxlu sayda iş yerləri, aparılan quruculuq-abadlıq işləri, yaratdığı "Azərbaycan möcüsəsi"-dir. Buna görə də rayonumuzun ziyalıları, o cümlədən bütün təhsil işçiləri, rayon əhalisinin tam əksəriyyəti seçkilərdə yüksək fəallıq göstərərək möhtərəm Prezidentimiz "Müasir Azərbaycanın banisi" İlham Əliyev cənablarına səs verəcəklər.

Qeyd olunanları nəzərə alaraq rayonun çoxsaylı müəllim ordusu adından dövlətimizi, Azərbaycan Respublikasının Təhsil Nazirliyini və Qəbələ RİH-ni əmin edirəm ki, 2013—2014-cü dərs ilində də pedaqoji kollektivlərimiz bütün gücünü sərf edərək yeni dərs ilində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün daha əzmlə çalışacaqdır.

Çıxışımın sonunda icazə verin sizin hamınızı qarşıdan gələn yeni dərs ilinin başlanması münasibəti ilə ürəkdən təbrik edim!

**(Məruzənin gedişi prosesində ötən dərs ili ərzində əldə olunan uğurlar, ən maraqlı məqamlar monitorda nümayiş etdtrilmişdir).**

**Konfrans materiallarını çapa Nadir ATAKİŞİYEV hazırlamışdır.**